AMEA RMİ-nin "Qeyri-harmonik analiz" şöbəsinin
2018-ci ilin I yarımili üçün elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatının qısa məzmunu

Hesabat dövrü ərzində "Qeyri-harmonik analiz " şöbəsində "Freym nəzəriyyəsi və onun tətbiqləri" və "Öz-özünə qoşma olmayan diferensial operatorların spektral xassələri" mövzuları üzrə elmi tədqiqat işləri aparılmış və 11 iş yerinə yetirilmişdir.

Şöbənin 17 əməkdaşı var. Onlardan "1" nəfər elmlər doktoru, "11" nəfər (3-ü yarım ştat) fəlsəfə doktoru, "2" nəfər elmi işçi, "3" nəfər isə laborantdır.

Şöbənin həftənin 3-cü günləri (12^{00}), 2-ci və 4-cü günləri (11^{00}) müntəzəm elmi seminarları keçirilir. Şöbə əməkdaşlarının əksəriyyəti ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğuldurlar.

Şöbə əməkdaşları tərəfindən hesabat dövrü ərzində 29 elmi iş çap edilmişdir. Bunlardan 9-u elmi məqalə (4-ü xaricdə) (TR-3; SCOPUS-2), 20-si konfrans tezisləridir. Bundan əlavə 6 məqalə çapa qəbul olunmuş, 15-ə yaxın məqalə isə çapa təqdim olunmuşdur.

Hesabat dövrü ərzində şöbə müdiri AMEA-nın müxbir üzvü B.T.Bilalov EİF-nun Rusiya ilə birgə elan etdiyi müsabiqənin qalibi, e.i. Aida Quliyeva isə EİF-nun "Mənim ilk qrantim" layihəsinin qalibi olmuşdurlar.

AMEA-nın müxbir üzvü Bilal Bilalovun rəhbərliyi ilə AMEA Elmi-Tədqiqat Proqramlarinin müsabiqəsi qalibi "Neyron şəbəkələrlə yaxınlaşma və freymlərin bəzi sualları" proqramı davam etməkdədir.

Hesabat dövrü ərzində şöbə müdiri AMEA-nın müxbir üzvü, prof. Bilal Bilalov 02.05.2018-06.05.2018-ci il tarixlərində Moskva şəhərində Rusiya Elmlər Akademiyasının akademiki V.A. Ilinin 90 illik yubileyinə həsr olunmuş "Современные методы теории краевых задач. Понтрягинские чтения – XXIX" beynəlxalq konfransında dəvətli məruzəçi və proqram komitəsinin üzvü kimi iştirak etmək üçün elmi ezamiyyətdə olmuşdur. Konfransda "Həyəcanlanmış

triqonometrik sistemlərin bazislik xassələrinin öyrənilməsi üçün sərhəd məsələsi metodu və onun ümumiləşməsi" mövzusunda plenar məruzə ilə çıxış etmişdir. Konfrans çərçivəsində akademik E.İ.Moiseyev, professor K.B.Sabitov, professor A.M.Sedletskiy, professor Z.Y. Fazullin, professor A.A.Şkalikov, professor A.P.Soldatov və başqa bir çox alimlərlə elmi müzakirələr aparılmışdır.

Şöbə müdiri AMEA-nın müxbir üzvü, prof. Bilal Bilalov 10.05.2018-16.05.2018-ci il tarixlərində İstanbul şəhərində "International Conference on Mathematical Advances and Applications (ICOMAA2018)" beynəlxalq konfransında dəvətli məruzəçi və təşkilat komitəsinin üzvü kimi iştirak etmək üçün elmi ezamiyyətdə olmuşdur. Konfransda "Çəkili Morri fəzalarında triqonometrik sistemlərin bazisliyi" mövzusunda plenar məruzə ilə çıxış etmişdir. Bundan əlavə Yıldız Texniki Universiteti və AMEA Riyaziyyat və Mexanika İnstitutu arasında elmi əlaqələr çərçivəsində həmrəhbər olduğu C.Karacam, Ş.Çetin və F.Şirinlə dissertasiya mövzularına uyğun alınmış nəticələr və yeni məsələlərin qoyuluşları müzakirə olunmuşdur. Çap olunmuş konfrans materiallarının redaktorlarından biri olmuşdur.

Hesabat dövrü ərzində şöbənin bir əməkdaşı riyaziyyat üzrə elmlər doktoru dissertasiya işini müdafiə etmiş, digər iki əməkdaşı isə riyaziyyat üzrə elmlər doktoru dissertasiya işinin müdafiəsinə buraxılmışdır. İki əməkdaş isə riyaziyyat üzrə fəlsəfə doktoru dissertasiya işinin müdafiəsi ərəfəsindədir.

Hesabat dövrü ərzində Sədr müavini olduğum Riyaziyyat Problemlər Şurasının keçirdiyi iclasda 17 mövzu qeydiyyata alınmış və təsdiq olunmuşdur. Onlardan 3-ü riyaziyyat üzrə elmlər doktoru dissertasiya işidir.

Hesabat dövrü ərzində Bilalov B.T. Bakı Dövlət Universitetində riyaziyyat üzrə Dövlət İmtahan Komissiyasının sədri olmuşdur.

Hesabat dövrü ərzində "Azerbaijan Journal of Mathematics" jurnalının iki, və "Caspian Journal of Applied Mathematics, Ecoloji and Economics" jurnalının bir sayı çap olunmuşdur.

Şöbə əməkdaşlarının əksəriyyəti International Conference on Mathematical Advances and Applications, May 11-13, 2018, Istanbul / TURKEY və The international conference "Operators, Functions, and Systems of Mathematical Physics Conference" (OFSMPC), 21-24 May, Khazar University beynəlxalq konfranslarında fəal iştirak etmişlər.

Şöbə müdiri **AMEA-nın müxbir üzvü,**
prof. Bilal Bilalov